# Səhnəmizin Şeyxi

## GƏNCƏNİN YOLLARI BAŞI DUMANLI...

Dumanlar içində görünən qədim Gəncə qalasına doğru minillik dağlar kimi ağır-ağır bir qoca yeriyir. Saçları Gəncə qalasının üstündəki dümağ duman kimidir. Qeybdən səs gəlir:

*Ey Şeyx Nizami, ey nizamı dağılan,*
*Ey Gəncədə izzü-ehtişamı dağılan.*
*Olmuşmu səninlə, mən kimi aləmdə*
*Beyti, evi, məktəbi, kəlamı dağılan.*

Səsdəki hüzn, qüssə, kədər ürəkləri parçalayır.

İşıq sönür, hər şey xəyal kimi əriyib yox olur. Zülmət gecədə yalquzaq kimi ulayan çovğunlu, boranlı, qarlı çöllərin qoynunda dərddən, ələmdən beli bükülmüş həmin qoca tək-tənha öz doğmasına qəbir qazır. Kirpiklərindən asılmış göz yaşları «buz tikanlara» dönüb iynə kimi gözlərinə batır. Yorulub əldən düşmüş, daşlaşmış qoca birdən çevrilib yan-yörəsinə baxır. Ucsuz-bucaqsız qarlı çöllər, ətrafında bir kimsə yox. Qəfil qeybdən gələn dəli gülüşlərə diksinir:


"Liftçi qız" filmindən

İblis nədir?

– Cümlə xəyanətlərə bais...

Ya hər kəsə xain olan insan nədir?

– İblis! ...Bu ki onun itkin düşmüş öz səsidir...

Qoca yerindən qalxıb qarlı çöllərdə əks-səda verən səsinin dalınca qaçır. Qaçdıqca da qəhqəhələr ucalır.

... Hər kəsə xain olan insan nədir?

– İblis!

İb-lis!

İb-li-sss!

Alışıb-yanan çılçıraq altında alqışlardan gözləri dolmuş ixtiyar qoca səhnədə hönkür-hönkür ağlamaq istəyir. Onu alqışlayanlar arasında gözləri qarlı çöllərdə itirdiyi doğmalarını, vətəndən dərbədər düşmüş əzizlərini axtarır. Onun doğmalarını, əzizlərini gedərgəlməzə aparan qədim Gəncə yolunun başlanğıcında isə korun-korun bir ocaq tüstülənir.

## ŞEYXZAMANOVLAR OCAĞI

4 avqust 1915-ci ildə Gəncədə Hacı İsa bəyin ailəsində bir oğlan uşağı doğuldu. Hacı Tanrı dərgahına üz tutub şükr etdi, dua elədi. Şeyxzamanovların nəsil ağacının bapbalaca bir yarpağı göz açırdı. Tarixi ulu Şeyx Nizamidən başlayan bu nəsil səcərə daşıyıcıları kimi ötən əsrin əvvəllərinə kimi Gəncə İmamzadəsinin sadiq keşikçiləri olmuşdular. Ulu Şeyx Nizamidən gələn, zəngin mənəviyyata yiyələnən, öz milli köklərinə bağlı olan bu nəsil haqqında nə qədər xatirələr, hekayətlər var. Tanınmış yazıçı, publisist Əhməd İsayevin yazdığı kimi: «Bu nəslin ən böyük kökü, dayağı Şeyx İbrahim Şeyx Həsən oğlu Şeyxzamanov olmuşdur. Adı tarixə düşən Şeyx İbrahim Qüdsi...

Firudin bəy Köçərli yazır ki, Şeyx İbrahimin Şeyx Nizami ilə rəqabəti var imiş, yəni gəncəlilər demiş, simsar, qohum imişlər. Şeyx İbrahim (Məmmədrza Şeyxzamanovun babası) 1816-cı ildə anadan olub. Mirzə Fətəli Axundova dərs demiş məşhur axund Molla Hüseynin yanında oxuyub. Gəncədə ilk əqaid və türk, yəni Azərbaycan dili müəllimi olub. «Naseh» imzası ilə xeyli şer yazıb. Sonralar isə Qüdsi kimi tanınıb. Bunun da maraqlı bir tarixçəsi var. Bir dəfə Abbasqulu ağa Bakıxanov Gəncəyə gələndə onun şərəfinə şer məclisi qurulubmuş. Hər kəs şer oxudu. Bakıxanov da. Sonra qonaq xəbər aldı: «Hə necədi, könlünüzə yatırmı?» Arxa cərgədən İbrahim cəld ayağa qalxdı:

– Mən xoşladım, ələdı.

– Hansı beyti, hansı fikri?

– Hamısını.

Bunu deyib Bakıxanovun indicə oxuduğu şeri birnəfəsə sətirbəsətir təkrar etdi. Gəncəlilər demiş, hamının əli üzündə qaldı. Bakıxanov həyəcandan sifəti pörtmüş cavana yaxınlaşdı, bərəkallah, - dedi. Bədnəzərdən uzaq, gözəl hafizən var. Özün bir şey yazırsanmı?

İbrahim «bəli» dedi və yenicə yazdığı bir qəzəli oxudu. Axund Molla Hüseyn öz yetirməsinə baxıb fərəhlə və qürurla gülümsədi: – Bizim İbrahim zəkalı uşaqdır, - dedi. – Qurani-Şərifi əzbər bilir.

Bakıxanov əbasını çıxarıb İbrahimin çiyninə saldı:

– A bala, adımı bağışladım sənə, bu gündən sən də oldun Qüdsi.

... Şeyxzamanovlar sülaləsi gəncəlilər üçün bir də ona görə əzizdir ki, onların adı müqəddəs İmamzadə

ilə bağlıdır. Əsrlər, illər boyu İmamzadəyə Şeyxzamanovlar baxıblar.

Şeyx İbrahim Qüdsi 1865-ci ildə 50 yaşında vəfat etmiş və İmamzadədə öz əli ilə hazırladığı sərdabədə dəfn edilmişdir».

Şeyx İbrahim Qüdsinin yadigarı Hacı İsanın ocağında dünyaya göz açan iki bacının bir qardaşı Məmmədrza Şeyxzamanov uşaq yaşlarından dəhşətlərlə üzləşmişdir. Babası şeyx İbrahimdən yadigar qalan ata-baba mülklərini və Gəncədə ən zəngin olan kitabxanalarını Azərbaycana soxulmuş bolşeviklər od vurub yandırdılar. Yaxına duranları güllə yağışına tutan bolşeviklər evdən bir çöp belə götürməyə imkan vermədilər. Bütün bunların canlı şahidi olan balaca Məmmədrzaya ən böyük dərd atasının bu acılara dözməyərək dünyadan vaxtsız köçməsi oldu.

Cəmisi 9 yaşı vardı Məmmədrzanın. Ata bir, ana ayrı olan istəkli qardaşı Ələsgər Müsavat hökumətinin göndərişi ilə Türkiyəyə-İstanbula oxumağa getmişdi. Cavanca anası Böyükxanımın ümidinə qalan üç uşağı - iki qız, bir oğlanı bir tərəfə çıxarmaq lazım idi. Böyükxanım balalarının qayğılarını yüngülləşdirmək üçün hələ tamam gənc olan qızı Həmidəni Cənubi Azərbaycandan olan bir tacirə ərə verdi. Arazın o üzünə köçən Həmidənin və bolşeviklərin gəlişi ilə yolları bağlanan Ələsgərin ayrılıq dərdi ailəyə acı iztirablar gətirdi. Amma Böyükxanım ərinin vəsiyyətini unutmamışdı: «Uşaqları, xüsusən, Məmmədrzanı oxutdur».

Ərinin vəsiyyətinə əməl edən Böyükxanım oğlunu məktəbə yolladı. Gəncə uşaqları arasında diribaşlığı, fəhmi, fərasəti ilə seçilən balaca Məmmədrza gözəl diskussiyaya, məlahətli səsə malik idi. Qulaq asanlar onun səsinin sehrinə düşür, bu gözləri yol çəkən oğlandan ayrılmaq istəmirdilər. Dərslərdən sonra teatr dərnəyinə yollanan Məmmədrzanı görənlər: «Babasına çəkib bu uşaq», - deyirdilər.

Az keçmiş Gəncədəki İnşaat Texnikumuna daxil oldu. Amma teatra olan böyük sevgisi burda da onu rahat buraxmadı. İnşaat Texnikumunun dram dərnəyinə yazılan Məmmədrzanın müxtəlif tamaşalarda oynadığı rollar hamını heyran qoydu. 15 yaşına çatanda artıq Gəncədə «artist Məmmədəli» adı ilə tanınan Məmmədrza Şeyxzamanovun qapısını ilk döyən Gəncə Dram Teatrının rejissoru Həbib İsmayılov oldu. Teatrda bu yaşda istedadlar az idi. Aktyorların çoxu orta və yaşlı nəslin nümayəndələri idilər. Həbib İsmayılov məhz buna görə sevinirdi. Məmmədrza səhnədəki boşluğu dolduracaqdı.

Teatrda müxtəlif rollar oynayan Məmmədrza Şeyxzamanovun ən böyük arzusu səhnədə tarixi qəhrəmanların obrazını yaratmaq idi. Hələlik isə ona «Vaqif» tamaşasında Eldar rolunu vermişlər. Məşqin qızğın yerində – Qacarla Eldarın döyüş səhnəsində qəfildən tamaşaçı zalından bir səs ucaldı: «Ayə, bir dayanın görüm, ayə, bir əl saxlıyın! Bu nədi ə, aləmi dağıtdınız ki...» –Səməd Vurğunun səsiydi. Gəncə teatrında əsərinin tamaşaya qoyulacağını eşidib, dəvətsiz-filansız durub birbaşa məşqlərə gəlmişdi: «Ayə, ay zalım, Eldar Gəncə qoçusu deyil, elə qılınc çalmaz. Eldar xalq qəhrəmanıdı. Oturanda dağ kimi ağır, duranda quş kimi cəlddir. Onu bax, bu tövr oynamaq lazımdı».

Məşqlərdə deyilən bu sözlər elə bil Məmmədrzanı ayıltdı. Özünü elə bil ki, döyüş meydanında hiss etdi. Artıq primyeradır. Döyüş meydanı səhnədir. Onu divarları titrədən alqışlar diksindirir. Əsl teatr fanatları - gəncəlilər həmyerliləri – gənc istedad Məmmədrza Şeyxzamanovu ayaq üstə alqışlayırlar. Böyük şair Səməd Vurğun da onların arasındadır. Sonra alqışlar altında səhnəyə qalxan ustad şair: «Məmmədrza neçə illərdən bəri görmək istədiyim Eldarın özüdür», – deyib, gənc aktyoru bağrına basır.

Bütün bunlar bal kimi şirin röyalardı. Sən demə, Şeyxzamanovlar ocağının şirin röyalarına göz yaşları, acılar qatılacaqmış...

## SÜRGÜN İLLƏRİ

1938-ci ildə Gəncənin varlı, əsilli ailələrinin birinin qızı – gözəl, göyçək Nigar xanım 17 yaşında Məmmədrzaya qoşulub qaçdı. Ailələr bir müddət küsülü qaldılar. Amma Gəncənin sevimlisi Məmmədrzaya küsülü qalmaq olardımı? Tezliklə barışdılar, qaynayıb-qarışdılar. Nigar xanımın ailəsi Məmmədrzanı öz balalarından ayırmadı. Tezliklə ilk övladları Kəmalə dünyaya gəldi. Sevinməyə macal tapmamış «xalq düşməni» ittihamı qapılarını döydü. Onu pantürkizmdə, qardaşının və bacısının xarici ölkədə yaşamasında günahlandırırdılar. Körpə ikən həyatın acılarını dadan, heç vaxt əyilməyən Məmmədrzanın dodaqları səyridi. Bələkdə olan körpəsini qucağına aldı. Dünyadan xəbərsiz balaca yavur mışıl-mışıl uyuyurdu. «Yox, mən günahsız balamı qarlı çöllərin qoynuna ata bilmərəm». Nigarına üz tutdu: «Mən sizi Qazaxıstan çöllərində – Semipalatinski rüzgarlarında ələm-yesir edə bilmərəm, Gəncədə qalmalısınız eşidirsən?». Nigar xanım da Gəncənin köklü nəslinin əyilməyən budağı idi. Ərinə qəti şəkildə etiraz etdi: «Mən gəncəli qızıyam, nəslim-nəcabətim var, eşidən-bilən nə deyər, Məmmədrza? Sən harda olsan, bu körpə balamızla mən də orada olacam».

Xüsusi xidmət orqanlarının nümayəndələri Gəncədə qalmaq üçün Nigar xanıma ərindən boşanmağı təklif etdilər. Lakin bu mətin mübariz qadının iradəsini sındıra bilmədilər. Beləliklə, əzablı sürgün həyatı başladı. Məmmədrza hələ faciələr yaşamış, Türkiyədən İtaliyaya getmiş, bir müddətdən sonra orda ailə qurmuş, faşistlər tərəfindən həbs edilərək konslagerə göndərilmiş və elə ordaca vərəm xəstəliyinə tutularaq vaxtsız vəfat etmiş böyük qardaşı Ələsgərdən, İrandan tanış adamların vasitəsilə gizlicə Türkiyəyə adlamış və İzmirdə yaşayan bacısı Həmidə xanımdan xəbərsiz idi.

Qazaxıstanın sərt iqlimi, müharibənin dəhşətli ağrı-acıları, aclıq, səfalət, xəstəlik sürgün olunanları cəhənnəm əzabına düçar etmişdi. Məmmədrza ilə birgə sürgünə göndərilən doğmalarının, əzizlərinin çoxu soyuğa, xəstəliyə dözə bilməyib, minbir zülümlə qəbir qazdı, torpağa tapşırdı. Bu faciəyə, bu müsibətə heç kəs dözmədi, o, tabladı, dözdü...

Semipalatinskidə işlədikləri kolxozda o müxtəlif işlərlə məşğul olurdu. Gecə-gündüz işləyir, yuxu nə olduğunu bilmirdi. Çünki ailəsinə və qohumlarına bir parça çörək tapmalı idi. Müharibə vaxtı idi. Kəndin başıpapaqlısının hamısı cəbhəyə getmişdi.

Aradan yeddi il keçdi. Stalinin əfv fərmanı çıxsa da Məmmədrzanın ailəsinə bu barədə heç nə demirdilər. Şeyxzamanovlar ailəsi doğma Azərbaycan həsrətiylə yaşayırdı. Lakin yaşadığı yerdən Məmmədrzanı heç yerə buraxmaq istəmir, qalıb burda işləməsini təkid edirdilər. Lakin onun ürəyi Gəncəyə uçurdu. Elə gecələrin birində sənədsiz-filansız yır-yığış edib qaçdılar. Dostları, doğmaları onu bir müddət Gəncədə gizlətdilər. İcazəsiz, sənədsiz-filansız sürgün yerindən qaçması ona çox baha başa gələcəkdi. Arada böyük şairimiz Səməd Vurğun olmasaydı...Məmmədrza xahişlə onun yanına getdi, başına gələn müsibətləri danışdı. Şair «qəhrəman Eldar»ı unutmamışdı. Stalinə müraciət etdi. Stalin Səməd Vurğunu çox istəyirdi, sözünü yerə salmadı. Məmmədrza Şeyxzamanovun ailəsi, sürgündə olan qohumları «üzə çıxdılar». Aktyor yenidən Gəncə teatrında fəaliyyətə başladı.

## BÖYÜK TEATR YOLLARINDA

1955-ci ildə Akademik Dram Teatrı ilə Gəncəyə qastrola gələn görkəmli rejissor Adil İsgəndərov Gəncədə hamının sevimlisi olan istedadlı aktyor Məmmədrza Şeyxzamanovu Bakıya – teatra dəvət elədi. Akademik Dram Teatrına gələndə onun artıq 40 yaşı vardı. Saçları dümağ ağarmışdı. Sürgün həyatı, keçirdiyi sarsıntılar, əzablar üz-gözündə qırışlar açmışdı. Lakin yaşadığı məhrumiyyətlər, acılar onun iradəsini sındıra bilməmişdi.

Yazıçı-jurnalist Asif Əliyevin yazdığı kimi: «O, ilk vaxtlar səhnədaşları tərəfindən soyuq qarşılandı. Ailəliklə sürgün olunması və özünün həbsi onlara müəmmalı görünürdü. Şəhərin tamaşaçıları da onu akytor kimi az tanıyırdılar. O, heç kəsin qoltuğuna sığınmadı, aza qane oldu, heçə dözdü, göyərçin qızlarını böyütdü, oxutdu, pərvazlandırdı. Hətta ona pənah gətirən və aktyor olmaq istəyən Əbdülü də qanadı altına aldı (gələcək aktyor-rejissor Əbdül Mahmudov nəzərdə tutulur)». Əbdül onun etimadını doğrultdu. Teatr İnstitutunun ikinci kursunda təhsilini davam etdirməklə yanaşı milli teatrda yeni tamaşalardan birində baş rola dəvət edildi. Məmmədrza buna hədsiz sevindi, məsləhət və köməyini ondan əsirgəmədi. Əbdül ona tapşırılan rolu uğurla oynadı. Amma baş məşqdən sonra gözə dəymədi, Məmmədrza yataqxanaya getdi, Əbdülün burnu əzilmişdi, dodaqları paralanmışdı. O, öyrəndi ki, bunu edən neçə ildən bəri onun hər bir addımını izləyən, söz-söhbətinə siyasi bəzək vuran məxfi idarənin işçisidir. İki ay bundan qabaq truppalarından biri Bakı ətrafı kəndlərə «Solğun çiçəklər» tamaşasıyla qastrola çıxmışdı. Əbdül tamaşaqabağı səhnəyə çıxıb ifaçıların adlarını söyləyəndə Məmmədrza Şeyxzamanovu əməkdar artist kimi təqdim etmişdi. Məmmədrza Bəhram rolunda oynayırdı. Məxfi nəzarətçi bunu öz bildiyi yerə yozmuş və cavana yazdırmaq istəmişdi ki, onu bu işə aktyor özü məcbur etmişdi. Əbdül bu təkiddən imtina etmişdi. Məmmədrza usta tərpəndi, teatrdan fotoqraf çağıtdırıb oğlanın şəklini çəkdirdi, həmin adamı zalda görəndə direktorun kabinetinə çağırtdırdı və o, içəri girən kimi ağzının üstünə karlı bir yumruq ilişdirdi. O, yerə sərildi. Ağız-burnu qanla doldu, akytor qəzəblə dedi:

– Köpək oğlu, köpək! Kimsəsiz görmüsən, gədəni? Bax budur deyirəm sənə, o gədəyə bir də dəyib-toxunsan ha, atamın goru haqqı, bütün nəslini yer üzündən silərəm. O, şəkilləri cibindən çıxarıb qarşısındakı adamın üzünə çırpdı. Daha həmin adamı teatrda görən olmadı».

Bütün bu qanıqaraçılığın içində aktyora elə bil ki, ikinci nəfəs gəlmişdi. Tezliklə o, istər səhnədə, istər kinoda, istərsə də radio və televiziyada bənzərsiz obrazlar silsiləsi yaratdı, hamının sevimli aktyoru oldu. İslam Səfərlinin «Göz həkimi» ndə professor Şahbazov, Səməd Vurğunun «Vaqif» pyesində Eldar, Qacar, «Xosrov və Şirin» tamaşasında Xosrov, Şekspirin «Qış nağılı»nda Poliksen, Cəfər Cabbarlının «Yaşar» pyesində İmamyar, «Aydın»da Aydın, Cəlil Məmmədquluzadənin «Ölülər»ində Hacı Həsən, Hüseyn Cavidin «İblis» tamaşasında İxtiyar, «Bəxtiyar» filmində konservatoriyanın professoru, «Bir qalanın sirri» filmində Həkim baba, «Əhməd haradadır»da Şirin. «Tütək səsi»ndə İsfəndiyar kişi, «Yeddi oğul istərəm»də Çalpa-

paq Kərəm, «Böyük dayaq»da raykom katibi Şərəf... Hələ «Qızmar günəş altında», «Leyli və Məcnun», «Nəsimi», «Onu bağışlamaq olarmı» və neçə-neçə məşhur filmlərdə yaratdığı parlaq obrazları demirik. Bütövlükdə aktyorun 1955-ci ildən ta ölümünə – 1984-cü ilə qədər yaratdığı obrazları göz önünə gətirəndə heyrətə gəlirsən. Bu qədər yaddaqalan xarakterlər yaratmaq, böyük əzab-əziyyətin, yuxusuz gecələrin və ən başlıcası, fitri istedadın bəhrəsi idi.»

## CAVANLAR ŞEYXİ ÇOX SEVİRDİLƏR

Afaq xanım Şeyxzamanovanın dediklərindən: «Atamın uşaqlıqdan ta ölümünə qədər keçdiyi yolu lap filmlərə, nağıllara bənzətmək olar. O, nədənsə dünəni, keçmişi xatırlamaq istəmirdi. Keçmiş onun üçün qorxulu bir yuxuydu. Atam sürgündə öz əlləri ilə neçə-neçə doğmasını, əzizini torpağa tapşırmışdı. Elə bil bu söhbətlərlə balalarının ürəyinə xal salmaqdan qorxurdu. Yalnız ölümündən bir az əvvəl uşaqlığı, gəncliyi, sürgün illəri ilə bağlı bəzi söhbətlər eləyirdi. O söhbətlərin bir çoxu fraqmentlər şəklində yadımdadı. Atam qubernatorun onun babası Şeyx İbrahim Qüdsiyə bağışladığı və bizim evdə yadigar kimi qorunub saxlanılan üstü yazılı qızıl saatı uşaq vaxtı velosipedə necə dəyişməsindən və sonra bunun peşmançılığını çəkməsindən acı-acı danışırdı.

O, həmişə yaşlı aktyorlardan daha çox, gənclərlə oturub-dururdu. Elə bil ki, itirilmiş gəncliyini onlarda tapırdı. Fuad Poladovu çox istəyirdi, «Onun böyük talantı və gələcəyi var», - deyirdi. Həsən Turabovun, Hamlet Xanızadənin, Səməndər Rzayevin, Hamlet Qurbanovun yaradıcılığını çox bəyənirdi. Cavanlar da onu çox istəyir, hörmət əlaməti olaraq «Şeyx» deyə çağırırdılar.

Biz ailədə çox ciddi tərbiyə almışıq. Atam həmişə çalışırdı ki, biz üç bacı yaxşı təhsil alaq. Oxumağımıza ciddi nəzarət edirdi. Ən yorğun anlarında belə dərslərimizi soruşur və gecədən xeyli keçmişə qədər mütaliə edirdi. Müxtəlif jurnallara, kitablara abunə yazılırdı. Bizim evdə indiyə qədər də bir çox jurnallar qalıb ki, kənarlarında atamın xüsusi qeydləri var. O qədər maraqlı həmsöhbət idi ki, onunla oturan adam ayağa durmaq istəməzdi. Üstəlik bu söhbətdə Gəncə şirinliyi, Gəncə koloriti olaydı.

Tarixi gözəl bilirdi. Bir dəfə yay ayları, Şuşada pansionatda dincəlirdik. Bir də gördük ki, atam gəlib çıxdı. Gülə-gülə dedi ki, ay bala, ürəyim dözmədi, gəldim sizə baş çəkəm. Şuşada olduğu o iki gündə bütün şuşalılar onun başına yığıldılar. O, Şuşayla, Qarabağın tarixilə, qarabağlılarla bağlı elə maraqlı söhbətlər elədi ki, mən heyrət elədim.

Atamın dilləri mənimsəmək duyumu vardı. Hansı respublikada ikicə həftə olsaydı o millətin dilini, məişətini, milli xüsusiyyətlərini öyrənərdi. Hüseyn Cavidin dəlisiydi. Onun şerlərini özünəməxsus tərzdə ifa edərdi. Həmişə bizə deyərdi ki, ay bala, əl çəkin bu belletristikadan, ciddi ədəbiyyat oxuyun. Ananızın evini elə bu cür kitablar yıxdı. Bu kitabları oxuya-oxuya o, lirik, romantik qadın oldu. Odur ki, indi hər kinoya baxanda ağlayır, biri bir əhvalat danışdımı, gözlərinin yaşını tökür.

Onu hamı sevirdi. Xüsusilə sadə adamlar. Bir dəfə cavan bir sürücü qapımızı döydü. Nə dedisə atam cəld paltarını geyinib, onunla aşağı düşdü. Anam soruşanda dedi ki, vallah, tanımıram, adi sürücüdü. QAİ pravasını əlindən alıb. Dövlət Avtomobil Müfəttişliyinin işçiləri atamı görüb əldən-ayaqdan getdilər və təcili sürücünün sənədlərini qaytarıb verdilər.

O, heç vaxt bizim arzularımızın əleyhinə getməmişdi. Ancaq heç birimizə onun sənət yolunu seçməyə icazə vermədi. Mən hətta «Qaraca qız» filminin çəkilişləri zamanı evdən xəbərsiz məktəbdən Tutu rolunun sınaq çəkilişlərinə də getmişdim. Orda biləndə ki, Şeyxzamanovun qızıyam, hamısı sevindi. Elə məni sorğu-suala tutmuşdular ki, qapı taybatay açıldı. Atam gur səsiylə, özü də hirsli-hirsli: «Evə də xəbər verməmisən, səhərdən səni axtarırıq, anan zəhr-bağır olub».

Sözün düzü, evə xəbər vermədiyimin peşmançılığını indi çəkdim. Ata-anamın nələr çəkdiyini duydum. Atama: «Şeyx, icazə ver, Tutu roluna qızınızı çəkək», - deyəndə, o: «Əşşi, qız az qala o dünyalıq olmuşdu. Mən heç vaxt onu bu odun-alovun qoynuna ata bilmərəm» - deyib qolumdan tutub bayıra çıxartdı. Sonralar bir dəfə xəstə yatanda dalınca maşın gəlib onu filmin dublyajı üçün aparanda mən də onunla getdim və gördüm ki, ilahi, bir epizodu neçə dəfə təkrar-təkrar səsləndirmək olar. Və bu əzabı görüncə atama ürəyimdə haqq qazandırdım və öz-özümə dedim: «Bu yol mənim yolum deyil».

Azərbaycanın xalq artisti Fuad Poladovun dediklərindən: «Teatra təzəcə gələndə çox həyəcan keçirirdim. Mənim üçün maraqlı idi ki, ikinci kurs tələbəsini – gənc aktyoru yüz ilin qos-qocaman aktyorları necə qarşılayacaqlar? Həmin gün ilk tamaşada Savalan rolunu oynayırdım. Qrim otağına daxil olanda stolun üstündə bir «otkritka»» gördüm. Səliqəli xətlə yazılmışdı: «Fuad, Savalan kimi göylərə ucal!» Məmmədrza Şeyxzamanov.

Siz təsəvvür eləyin, necə təsirləndim. Bax adicə bir hərəkət Məmmədrza Şeyxzamanovu həm böyük bir insan, həm də gözəl aktyor kimi xarakterizə edir.



Məmmədrza Şeyxzamanov teatrda həmişə gənclərlə oturub durardı. Onun əhatəsində olan ən istedadlı gənclər bu böyük aktyordan çox şeylər öyrənirdilər. Bəlkə onun mehribançılığı, əsl gənclərə xas olan şirinliyi, koloritiydi gəncləri ona bağlayan. Məmmədrza Şeyxzamanov özünü cavanların arasında çox sərbəst hiss eləyirdi. Elə biz də başqa qocaman aktyorlarla müqayisədə özümüzü onun yanında rahat hiss eləyirdik.

O nəsildən olan aktyorlarla aramızda bir pərdə var idi. Məmmədrza Şeyxzamanov o pərdəni elə ilk tanışlıqdan ortadan götürmüşdü. O, gənc aktyorları öz balası kimi sevir, onlara dayaq durmağa çalışırdı. Hansı bir prolblemin olsaydı, o saat qabağa düşüb həll edərdi. Ona görə də cavanlar onun yaşıdlarını ya dayı, ya müəllim adlandırsalar da, Məmmədrza Şeyxzamanovu hörmət əlaməti olaraq hamı «Şeyx» çağırırdı. Bu onun özünə də xoş gəlirdi. Həm də Şeyx deyəndə biz onu özümüzə çox yaxın hesab eləyirdik.

Zahirən çox güclü, zəhmli adama oxşasa da, Şeyx daxilən çox zəif, çiçək qədər kövrək bir insan idi. Oturub təsirli bir söhbət eləyəndə o saatca uşaq kimi gözləri dolardı. Səsinin qaltanı, özünün boyu-buxunu, zahiri görkəmi kəskin xarakterli insan təsiri bağışlayırdı.

Şeyx həddindən artıq zarafatcıl insan idi. Onun zarafatlarının, çəkdiyi misalların, zərbül-məsəllərin kökləri çox dərinlərdən gəlirdi. Çünki, Şeyx çox güclü duyuma, dərin mütaliəyə malik bir insan idi. Onun yumorunda da bir zəriflik, şuxluq və eyni zamanda mənə dərinliyi var idi. Yadıma gəlir «İblis» tamaşası gedirdi. Bu tamaşada Səməndər Rzayev bir rolu, Mikayıl Mirzəyev başqa bir rolu oynayırdı. Rasim Balayevi də təcili tamaşada oynamaq üçün teatra çağırdılar. O da bu tamaşada ilk dəfə hansı roldasa oynadı. Məmmədrza Şeyxzamanov hər üç aktyora baxıb-baxıb dedi: «Hə, üç ağsulu birləşdilər. Qiyamət qopacaq. Bundan sonra onların qabağında durmaqmı olar? Gərək hər üçünə Ağsunun dolaylarında heykəl qoyulsun».

Mən onunla bir neçə tamaşada tərəf-müqabili olmuşam. «Darıxma ana» tamaşasında ən yaddaqalan bir səhnəmiz var idi. O mənim komandirim rolunu oynayırdı. Əsərdə bir səhnə var idi. Əsgərlikdə sərhəddə qulluq eləyən obrazını yaratdığım Aftandil öz dostunu itirir və belə bir kövrək vəziyyətdə səhnədən çıxmaq istəyəndə qabağına komandiri - Məmmədrza Şeyxzamanov çıxır. Əsgərin düşdüyü vəziyyəti hiss edir, duyur: «Məzuniyyət verirəm, bir həftəliyə get evə, özünə gəlginən», - deyir. Bu səhnədə hər ikimizin gözləri dolardı. Yaxşı yadımdadır, səhnədən çıxan kimi həmişə bir-birimizi doğma adamlar kimi qucaqlayardıq.

Məmmədrza Şeyxzamanov son dərəcə faciəli və keşməkeşli həyat yolu yaşamışdı. Bu kədər, bu yanğı onun səsindən, ən çox da mənalı gözlərindən duyulurdu. Onun səsinin tembri, zahiri görünüşü, həm teatrda, həm kinoda, həm də müxtəlif filmlərin dublyajında yaratdığı xarakterlər heç vaxt unudulmayacaq. Heç vaxt... Çünki, Məmmədrza Şeyxzamanov böyük sənətkar idi».

## ÖLMƏYƏ VƏTƏN YAXŞI

Məmmədrza Şeyxzamanov uzun ayrılıqdan sonra 60-cı illərin axırlarında Türkiyədə yaşayan böyük bacısı Həmidə xanımla görüşə bildi. Xalq şairi Nigar xanım Rəfibəylinin köməyilə baş tutan bu görüş son dərəcə unudulmaz, təsirli bir səhnə idi. Hamı göz yaşı içindəydi, ağlayırdı... Azərbaycana, doğma Vətəninə üç günlüyə turist kimi gələn Həmidə xanım üç günün tamamında qardaşının boynuna sarılıb bir daha geri qayıtmayacağını, ölüb Vətəndə qalacağını hönkürə-hönkürə bildirdi. O, vəsiyyət etmişdi ki, öləndə onu doğulduğu Gəncədə basdırsınlar. Məmmədrza Şeyxzamanov Dövlət Təhlükəsizlik Komitəsinin sədri, xalqımızın böyük oğlu general-mayor Heydər Əliyevə müraciət etdi. Həmidə xanımı və Məmmədrza Şeyxzamanovu qəbul edən Heydər Əliyev onun viza müddətini üç aya qədər uzatdı. Üç ay keçmiş yenidən Həmidə xanımı və böyük aktyorumuz Məmmədrza Şeyxzamanovu yanına çağırdı: «Qardaşla bacını bir-birindən ayırmaq insafsızlıqdı. Bu həm də xalqımızın faciəsidir, tarixin bir dönəmidi, çox təəssüf ki, biz onu yaşayırıq», - dedi. Və sonra Həmidə xanıma üz tutdu: «Həmidə xanım, Razin qəsəbəsində təzəcə tikilmiş binada sizə mənzil ayırmışıq. Öz Vətəninizdə rahatca yaşaya bilərsiniz. Bu da Azərbaycan vətəndaşlığına bərpa olunmağınız haqqında sənəd». Göz yaşları içində qardaş-bacı bir-birinə sarıldılar. Uzun illərin həsrəti, acısı, intizarı beləcə sona yetdi.

1979-cu ilin sonlarında Həmidə xanım, 1984-cü ilin yanvarın 25-də isə xalqımızın qüdrətli aktyoru, görkəmli teatr və kino xadimi, Azərbaycanın xalq artisti, dövlət mükafatı laureatı Məmmədrza İsa oğlu Şeyxzamanov 69 yaşında haqq dünyasına qovuşdu. Göylər kimi təmiz, pak olan Şeyxin uyuduğu torpaq həqiqətən haqq dünyasıdır.

**Zülfüqar ŞAHSEVƏNLİ**





Mədəni-maarif - 9 - 2007